silkway west airlines

Worldwide Azerbaijan Cargo

| Ambition movers

# "Silk Vey Vest Aviaşirkəti" Məhdud Məsuliyyətli Cəmiyyəti

# İstiqrazlar üzrə Baza Emissiya Prospektinin

# Yekun Şərtləri

# №2

"Silk Vey Vest Aviaşirkəti" MMC-nin İstehsalat və korporativ əlaqələr üzrə

İcraçı vitse-prezident

Qasımov Kamran Çinqiz oğlu

___________________________

"Silk Vey Vest Aviaşirkəti" Company LTD Silk Way West Airlines Məhdud Məsuliyyətli Cəmiyyət

2021-ci il

silkway west airlines

Worldwide Azerbaijan Cargo

| Ambition movers

# BƏYANAT

Bu Yekun Şərtlər Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq edilmiş Baza emissiya prospektinin əlavəsidir və emissiya prospekti ilə birgə oxunmalıdır.

Baza emissiya prospekti qanunvericiliklə nəzərdə tutulmuş vahid məlumat resursunda, Bakı Fond Birjası və emitentin rəsmi internet səhifələrində açıqlanmışdır.

Bu Yekun şərtlər Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən təsdiq edilmiş Baza emissiya prospekti üzrə istiqrazların ikinci buraxılışıdır.

"Silk Vey Vest Aviaşirkəti" MMC-nin İstehsalat və korporativ əlaqələr üzrə

İcraçı vitse-prezidenti

Qasımov Kamran Çinqiz oğlu

"Silk Vey Vest Aviaşirkəti" Company LTD Silk Way West Airlines Məhdud Məsuliyyətli Cəmiyyət

"Silk Vey Vest Aviaşirkəti" MMC-nin Xəzinədarlıq idarəsinin rəisi

Nəcəfov Emil Yusif oğlu

silkway west airlines

Worldwide Azerbaijan Cargo

| Ambition movers

# MÜNDƏRİCAT

Xülasə........................................................................................................4

İstiqrazlar barədə məlumat...........................................................................5

silkway west airlines

Worldwide Azerbaijan Cargo

| Ambition movers

# 1. XÜLASƏ

**1.1.** Xəbərdarlıqlar

1.1.1. Bu buraxılış Baza emissiya prospektinə əsasən ümumi məbləği 50 000 000 (əlli milyon) ABŞ dolları olan istiqrazların ikinci buraxılışıdır;

1.1.2. Qiymətli kağızlara investisiya etmək barədə hər hansı bir qərar investorun emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir;

1.1.3. Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyır.

# 2. İSTİQRAZLAR BARƏDƏ MƏLUMAT

2.1. İstiqrazların buraxılışı haqqında yekun şərtlər

2.1.1. **İstiqrazların növü:**Faizli, təminatsız, sənədsiz, adlı istiqrazlar

2.1.2. **Təklif edilən istiqrazların sayı və nominal dəyəri**: Bu Yekun Şərtlərlə təklif edilən istiqrazların sayı 10 000 (on min) ədəd, nominal dəyəri isə 1 000 (bir min) ABŞ dolları təşkil edir.

2.1.3. **İstiqrazların valyutası**: ABŞ dolları

2.1.4. İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:

- Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 5 (beş) faiz həcminə qədər faiz almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

İstiqrazlarla təsbit olunan hüquqların həyata keçirilməsinə dair qanunvericiliklə nəzərdə tutulmuş hallardan başqa məhdudiyyətlər nəzərdə tutulmamışdır.

2.1.5. **Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

2.1.6. **İstiqrazlar üzrə ödənilməli kupon (faizlər):** İstiqrazlar üzrə illik faiz dərəcəsi 5 (beş) faiz təşkil edir. Bu buraxılış üzrə ilk faiz (kupon) ödənişləri tədavüldə olan birinci buraxılış istiqrazlar üzrə faiz (kupon) ödənişlər ilə eyni tarixlərdə ödəniləcəkdir.

2.1.7. **Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən edilmişdir.

2.1.8. **Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə(olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat.** Belə halların tənzimlənməsi qaydaları və prosedurları: İstiqrazlar üzrə baza aktivi mövcud deyil.

Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcəkdir.

2.1.9. **Təmin edilmiş istiqrazlar təklif olunduqda, Təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə məlumat**: İstiqrazlar təminatsız formada buraxılır.

2.1.10. **İstiqrazların geri satınalınmasının şərtləri:** Geri satınalınma nəzərdə tutulmamışdır.

2.1.11. **Gəlirlilik dərəcəsi və onun hesablanma qaydası**:

İstiqrazlar üzrə kupon gəlirliyi illik 5 (beş) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$TF = \frac{\left(\frac{N * D * G}{360}\right)}{100}$$

Burada:

$TF$ – Bir istiqraz üzrə toplanmış faizlər;

$N$ – Bir istiqrazın nominal dəyəri (1000 (bir min) ABŞ dolları);

$D$ – İstiqrazların illik faiz dərəcəsi (5 (beş) %);

$G$ – İstiqrazlar üzrə son kupon ödənişindən sonra keçən günlərin sayı.

2.1.12. **İnvestorları təmsil edən təşkilat barədə(olduqda) məlumat:** Mövcud deyil.

2.1.13. **İstiqrazların təklif qiyməti məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirmə metodunu göstərməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxs(lər) barədə məlumat**: Bir istiqrazın təklif qiyməti 1 000 (bir min) ABŞ dolları və istiqrazların birinci buraxılışı üzrə baş tutmuş hərrac tarixindən ikinci buraxılış üzrə baş tutacaq hərrac tarixinə qədər bir istiqraz üzrə toplanmış faizlər təşkil edir. İstiqrazın təklif qiymətinin hesablanması üzrə məsuliyyət anderrayterin üzərindədir.

2.1.14. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmadığı barədə məlumat. Belə bir müraciətin nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə yerləşdirilməsi "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında rəqabətli hərrac üsulu ilə həyata keçiriləcək.

2.1.15. **Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat:** Emissiyada aşağıdakı şəxslər iştirak edir və onlar arasında maraqlar toqquşması mövcud deyil:

**"Bakı Fond Birjası" QSC**

Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya ediləcəkistiqrazlarının listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000-ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir. BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.
İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC -nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların hərrac vasitəsilə yerləşdirilməsi üçün müvafiq ticarət sisteminin təmin edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi.

**"Milli Depozit Mərkəzi"**
Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən Mərkəzi depozitardır.
İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:
İstiqrazların saxlanması və uçotunun aparılması;
İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;
Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

**Anderrayter:** PAŞA Kapital İnvestisiya Şirkəti QSC. Müvafiq lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində anderrayterin vəzifələri aşağıdakılardır:
İstiqrazların yerləşdirilməsi üzrə hərrac zamanı toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alqı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək;
Emissiyanın yekunları haqqında hesabat Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq ediləndən sonra, yerləşdirmə nəticəsində toplanmış pul vəsaitlərini Emitentin bank hesabına köçürülməsini təmin etmək.

2.1.16. **Təklifin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:** Əldə olunan vəsaitlərin

şirkətin böyümə strategiyasına uyğun olaraq yeni layihələrin maliyyələşdirilməsinə və cari lahiyələrin icrasının sürətləndirilməsinə yönəldilməsi nəzərdə tutulmuşdur.

2.1.17. **Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələri maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin məbləği və mənbələri:**

Cəmiyyətin layihələri üzrə istiqrazlardan əldə ediləcək 50 000 000 (əlli milyon) ABŞ dollarından əlavə digər mənbələrdən vəsaitin ayrılması nəzərdə tutulmamışdır.

**Əldə olunan vəsaitlərin istifadəsi, digər müəssisələrinin alışını maliyyələşdirmək üçün və ya borcları qaytarmaq, azaltmaq, restrukturizasiya etmək üçün və ya başqa aktivləri əldə etmək üçün istifadə olunması barədə məlumat:** Əldə olunacaq vəsait bu bənddə göstərilən istiqamətlər üzrə istifadə olunmayacaqdır.

2.1.18. **İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer: Milli Depozit Mərkəzinin ünvanı:** Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1141, Həsən bəy Zərdabi prospekti 2A, Şokolad Tower.İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi: Emissiya edilən istiqrazlar üzrə illik kupon (faiz) dərəcəsi 5 (beş) faiz müəyyən edilmişdir.

2.1.19. **İstiqrazların və faizlərin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 5 (beş) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 3 (üç) il müddətində, ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə) hər 3 (üç) təqvim ayından (ilk faiz (kupon) ödənişi istisna olunmaqla) bir ödənilir. Bu buraxılış üzrə ilk faiz (kupon) ödənişi tədavüldə olan birinci buraxılış istiqrazlar üzrə faiz (kupon) ödənişi ilə eyni tarixdə ödəniləcəkdir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti ilk iş günü ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirlir. İstiqrazların nominal dəyəri sonuncu kupon ödənişi ilə birlikdə ödəniləcəkdir.

2.1.20. **Ödənişlər üzrə hesablaşma agentinin adı**: İstiqrazlar üzrə faiz (kupon) ödənişləri və nominal dəyər üzrə əsas ödəniş Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların yerləşdirilməsi zamanı pul vəsaitlərinin toplanması PAŞA Kapital İnvestisiya Şirkəti QSC-nin hesablaşma agenti olan PAŞA Bank ASC vasitəsi ilə yerinə yetiriləcəkdir.

2.1.21. **İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:** "Silk Vey Vest Aviaşirkəti" MMC-nin Təsisçisinin Ümumi Yığıncağının 27.08.2021-ci il tarixli Qərarı.

2.1.22. **Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:** Bu Yekun şərtlər qanunvericiliklə müəyyən edilmiş orqan (qurum) tərəfindən dövlət qeydiyyatına

alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı iki iş günü qalmış hərracın baş tutacağı tarix "BakıFond Birjası" QSC-nin (www.bfb.az) və Anderrayterin saytında investorlara açıqlanacaqdır.

2.1.23. **Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən Emissiya prospektində dəyişikliklər barədə qərarı Emitentin ipoteka istiqrazlarının emissiyası haqqında qərarı qəbul etmiş orqanı qəbul edir. Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 iş günü ərzində Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim edilir. Emissiya prospektində dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən 10 iş günü ərzində dövlət qeydiyyatına alınır. Emissiya prospektində edilmiş dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən 5 iş günü ərzində vahid məlumat resursunda, BFB-nin və Emitentin rəsmi internet səhifələrində açıqlanır və açıqlandığı tarixdən 15 iş günü bitdikdən sonra qüvvəyə minir.

2.1.24. **Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** Təklif "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanunun 9-cu maddəsinə əsasən dayandırıla bilər.

2.1.25. **İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:** Nəzərdə tutulmamışdır.

2.1.26. **İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə hərracın keçirilməsi qaydası:** İstiqrazlar Bakı Fond Birjası QSC-nin ticarət platformasında rəqabətli hərrac üsulu vasitəsilə yerləşdiriləcəkdir. Hərrac zamanı ilk növbədə investorlar tərəfindən təqdim edilən ən yüksək qiymətli sifarişlər təmin ediləcəkdir. Qiymət bərabər olduqda sifarişlərin həcminə uyğun olaraq mütənasib qaydada təmin ediləcəkdir. İstiqrazların nominal dəyərindən (1 000 ABŞ dolları) aşağı qiymətə verilmiş sifarişlər təmin edilməyəcəkdir. Hərrac bir və ya bir neçə gün ərzində, hərraca çıxarılan istiqrazların həcmi tam yerləşdirilənədək davam edə bilər.

2.1.27. **İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** İstiqrazların yerləşdirilməsi nəticəsində istiqrazlar investorların depo hesabına köçürülərək dondurulacaq, pul vəsaitləri isə anderrayterin hesablaşma agentində açılmış bank hesabına köçürüləcəkdir. Bu buraxılış üzrə istiqrazların emissiyasının yekunları haqqında hesabat Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq edildikdən sonra, investorların depo hesabında olan istiqrazlar dondurmadan azad ediləcək, pul vəsaitləri isə Emitentin bank hesabına köçürüləcəkdir.

2.1.28. **İstiqrazların yerləşdirilməsinin başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və yerləşdirmənin xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** Bu Yekun şərtlər qanunvericiliklə müəyyən edilmiş orqan (qurum) tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı iki iş günü qalmış hərracın baş tutacağı tarix

"BakıFond Birjası" QSC-nin (www.bfb.az) və Anderrayterin saytında investorlara açıqlanacaqdır.

2.1.29. **İstiqrazların təklif qiyməti**: Bir istiqrazın təklif qiyməti 1 000 (bir min) ABŞ dolları və istiqrazların birinci buraxılışı üzrə baş tutmuş hərrac tarixindən ikinci buraxılış üzrə baş tutacaq hərrac tarixinə qədər bir istiqraz üzrə toplanmış faizlər təşkil edir.

2.1.30. **İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği**:

**Vergilər**. İstiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində tutulan vergidən fiziki şəxslər 2023-cü ilin fevral ayının 1-dək azaddırlar. Hüquqi şəxslərə istiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində 10 % vergi tətbiq edilir.

İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

2.1.31. **Xərclər**. İstiqrazın əldə olunması ilə bağlı broker xərcləri investisiya şirkətlərinin tarif siyasətindən asılıdır. Xərclər barədə məlumat almaq istəyən investorlar onlara investisiya xidməti göstərən investisiya şirkətinə müraciət etməlidir. Bakı Fond Birjasında yerləşdirmə xərcləri isə icra olunan əqdin həcmindən 0.02% (sıfır tam onda iki faiz) təşkil edir.

**İstiqrazları öhdəlik götürülməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat(adı, lisenziyası və ünvanı) və xidmət haqqı:**

İstiqrazları öhdəlik götürmədən yerləşdirən anderrayter: "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC

Lisenziya: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən 09.03.2016-cı il tarixində verilmiş 088806 nömrəli "investisiya şirkəti fəaliyyəti"nə dair Lisenziya

Ünvanı: Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 44 (Caspian Plaza), AZ1065, Azərbaycan

Xidmət haqqı: Ümumi yerləşdirilmiş məbləğin 1%-ı həcmində müəyyən olunmuşdur.

2.1.32. **Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:** Emitent tərəfindən buraxılacaq istiqrazlar Bakı Fond Birjasında tədavül ediləcəkdir.

2.1.33. **Marketmeyker(lər) barədə məlumat:** Mövcud deyil. Bazar şərtlərini nəzərə alaraq Emitent istiqrazların likvidliyinin qorunması və ya artırılması məqsədi ilə market-meyker cəlb edə bilər.

2.1.34. **Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri:** Mövcud deyil.